2003 2017

Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi

Əsası ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş sosial-iqtisadi inkişaf strategiyası, onun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmizin iqtisadi qüdrəti günbəgün yüksəlir. Prezident İlham Əliyev ötən 14 ildə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir. Ötən illərdə keçid dövrünü geridə qoyan respublikanın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə əsas məqsədlərdən biri də milli iqtisadiyyatın rəqabətqabiliyyətliyinin yüksəldilməsinə və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdir.

Azərbaycan sahibkarlığı sürətli inkişaf mərhələsində böyük nailiyyətlər qazanır

Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində öz mövqeyini gündən-günə möhkəmləndirməkdədir. Son illər dünyada baş verən toqquşmalar, qarşıdurmalar və qanlı müharibələrin getdikcə alovlandığı bir zamanda Azərbaycanın ikitərəfli və çoxtərəfli münasibətləri inkişaf etdirməsi, davamlı sabitliyi qoruyub saxlaması və beynəlxalq təşkilatlarda uğurla təmsil olunması artıq reallığa çevrilib. Bu nailiyyətlərin əsasını uğurlu xarici siyasət təşkil edir.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasət müstəqil Azərbaycanı inkişaf yolunda inamla irəliyə aparır. Xalqın iradəsinə və dövlətçilik maraqlarına əsaslanan bu yol ölkəmizi dünyanın inkişaf etməkdə olan dövlətləri sırasına qoşub.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Ölkə rəhbərinin imzaladığı dövlət proqramlarının, fərman və sərəncamlarının icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payı və rolunu davamlı şəkildə artırır.

Ölkənin iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin iqtisadi siyasətinin ana xəttini təşkil edir.

Ölkə rəhbərliyinin yüksək dəqiqliklə seçdiyi və uğurla həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət kursu nəticəsində əlverişli biznes və investisiya mühiti investisiya axınının sürətlənməsinə şərait yaratmış, son 14 ildə iqtisadiyyatımıza 200 milyard dollar investisiya qoyulmuş, ölkəmizdə orta illik iqtisadi artım 12,2 faiz təşkil etmiş, daxili mənbələr hesabına əsas kapitala yönəldilən investisiyaların həcmi 3,6 dəfə, o cümlədən qeyri-neft sektoruna yönəldilən investisiyalar 9,6 dəfə, minimum əməkhaqqının səviyyəsi 3,5 dəfə, ölkə üzrə orta aylıq əməkhaqqı 3,3 dəfə, orta aylıq pensiya isə 4,7 dəfə artmışdır. Nəticə etibarilə ölkədə yoxsulluğun səviyyəsi 6 faizdən, işsizlik səviyyəsi isə 5 faizdən aşağı enmişdir.

Azərbaycan Respublikasında 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olur, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir.

2017-ci il yanvarın 30-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda dövlət başçısının qeyd etdiyi kimi, həqiqətən də 2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bütövlükdə tarixi hadisədir və tarixi nailiyyətdir.

Sentyabrın 14-də Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli"(AÇG) yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin imzalanması mərasimində Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün Azərbaycan üçün əlamətdar və tarixi bir gün olmaqla, həmin yataqlar blokunun işlənməsində yeni dövrün başlanğıcıdır. Müqavilənin şərtinə əsasən, Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75% təşkil edəcəkdir.

İqtisadi inkişafın təhlili və proqnozlar göstərir ki, "Yeni əsrin müqaviləsi"nin uğurla reallaşdırılması ölkədə iqtisadi sektorun inkişafına, iqtisadi artım isə öz növbəsində maliyyə sektorunun güclü tərəqqisinə imkan yaradacaqdır. Bütün bunlar xalqımızın sosial rifahının yüksəlməsinə, onun firavan yaşamasına xidmət edəcək, ölkəmizin regionda lider imicinin möhkəmlənməsinə təkan verəcəkdir.

Oktyabrın 9-da Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məqamlardan biri də məhz qeyri-neft sektorunun inkişafı ilə bağlı olmuşdur.

İclasda ölkə Prezidenti İlham Əliyev dedi: "Bildiyiniz kimi, sahibkarlığın inkişafı üçün bir çox işlər görülür. Hazırda sahibkarlara verilən güzəştli kreditlərin demək olar ki, tam həcmi əvvəllər verilmiş və qaytarılmış kreditlər hesabına təşkil edilir. Bu il kifayət qədər böyük proqram nəzərdə tutulmuşdur. Bu proqramın böyük hissəsi icra edilmişdir. Amma hələ də Sahibkarlığa Kömək Milli Fondunun sərəncamında kifayət qədər vəsait - bölüşdürülməmiş, yaxud da ki, bölüşdürülmüş, ancaq verilməmiş kreditlər var. Çalışmaq lazımdır ki, ilin sonuna qədər nəzərdə tutulmuş kreditləşmə tam həcmdə təmin edilsin".

Son statistik göstəricilər də bunu təsdiq edir. Belə ki, 2017-ci ildə Sahibkarlığa Kömək Milli Fondu 1154 sahibkara 90 milyon manatdan çox güzəştli kredit vermişdir ki, kreditlərin 74 faizi regionların payına düşür. Eyni zamanda, fondun vəsaiti hesabına 2017-ci ildə aqroparklara 11,5 milyon manat güzəştli kredit vəsaiti ayrılmışdır.

Aparılmış islahatlar beynəlxalq hesabatlarda da ölkəmizin mövqeyinə müsbət təsir göstərmiş, 140 ölkəni əhatə edən "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan ötən illə müqayisədə mövqeyini yaxşılaşdıraraq 35-ci pilləyə yüksəlmiş, MDB məkanında əvvəlki illərdə olduğu kimi, liderliyini qoruyub saxlamışdır.

Bu ilin 9 ayında qeyri-neft sektorunun sənaye hissəsində artım 3.1 faiz, kənd təsərrüfatında 2.8 faiz təşkil etmiş, xarici ticarət dövriyyəsi 7 faiz artmışdır. Azərbaycanın valyuta ehtiyatlarının 4.5 milyard artaraq 42 milyard dollar səviyyəsinə çatması doqquz ayın ən uğurlu göstəricilərindən biridir.

Bu gün ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələri arasında, kütləvi informasiya vasitələrində daha çox müzakirə olunan məsələlərdən biri Prezident İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq etdiyi milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsidir. Azərbaycanda siyasi müstəqilliyin bərpasından sonra bu səviyyədə və bu dərəcədə reallıqlara söykənən, yaxın və uzaq perspektivə hesablanan iqtisadi sənəd qəbul edilməmişdir.

10 bölmədən 14 bənddən və 11 hissədən ibarət olan bu sənəd qısa, orta və uzunmüddətli dövrlərə hesablanıb. O, təkcə inkişaf məqsədləri və prinsipləri deyil, həm də bir istiqamət üzrə qlobal meyilləri, iqtisadiyyatın 360 dərəcəli diaqnostikasını və tələb olunan investisiya göstəricilərini əhatə edir. Strateji Yol Xəritəsində qarşıya qoyulmuş vəzifələri icra etməklə qısamüddətli zaman üçün seçilmiş prioritetlərə istiqamətlənərək orta və uzunmüddətli dövrlərdə iqtisadi inkişafın bünövrəsi qoyulmuşdur.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin beşinci bölməsində göstərilir ki, 2025-ci ilə qədər Azərbaycanda hər il ümumi daxili məhsul istehsalı 3 faizdən çox artacaq və əlavə olaraq 450 mindən çox yeni iş yerləri yaradılacaq.

Sözsüz ki, bu hədəflərə nail olmaq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə strateji yol xəritələrində nəzərdə tutulan vəzifələrin uğurla həyata keçirilməsindən asılıdır. Bunun üçün isə ilk növbədə investisiyaların və digər resursların səfərbər edilməsi tələb olunur. Hesablamalara görə, təkcə 2020-ci ilədək nəzərdə tutulan prioritetlərin yerinə yetirilməsi üçün təxminən 27 milyard manat investisiya lazımdır və bu məbləğ bütün sektorlar üzrə strateji yol xəritələri çərçivəsində tələb olunan ümumi vəsaitdir. Bütün növ dövlət və özəl (yerli və xarici) mənbələr hesabına təmin olunacaq həmin investisiyalar ölkə iqtisadiyyatı üçün 2020-ci ilədək müəyyən edilmiş hədəflərdən əlavə, gələcək üçün nəzərdə tutulan məqsədlərə təsir baxımından da bünövrə rolunu oynayacaq. Bu isə Azərbaycana Strateji Yol Xəritəsinin prioritetlərinin müsbət trayektoriyası ilə daha yüksək hədəflərə çatmağa kömək edəcəkdir.

Bu ilin doqquz ayında 200-dən artıq investisiya təşviqi sənədi verilib ki, bunun nəticəsində Azərbaycana özəl sektor tərəfindən 1,7 milyard manat sərmayə cəlb edilmiş və ölkədə ixracın təşviqi mexanizmi işə salınmışdır. Təsadüfi deyil ki, bu ilin doqquz ayında əsas hissəsi xarici sərmayə olmaqla, ölkə iqtisadiyyatına 8,3 milyard dollar sərmayə qoyulmuşdur.

Strateji yol xəritələri ilə eyni vaxtda ölkə prezidenti tərəfindən sahibkarlığın inkişafı üçün onun şəffaflığının təmin edilməsi və hesabatlılığın düzgün aparılması sahəsində mühüm qərarlar qəbul edildi. 17 mart 2017-ci ildə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə fərman xarici ticarətdə iştirak edən dövlət orqanlarının üzərinə konkret vəzifələr qoymaqla şəffaflığın yüksəldilməsinə yönəlmiş çox mühüm bir addımdır. Yoxlamaların vahid məlumat reyestri sahibkarlığa müdaxilələrin, qanunsuz yoxlamaların qarşısını almaqla yanaşı, eləcə də onların dürüst fəaliyyətlərinin əksi olacaqdır. Həmçinin "Nağdsız hesablaşmalar", "Vergi Məcəlləsinə" əlavə və dəyişikliklərin edilməsi haqqında qanunlar vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatların və hesablaşmaların şəffaflığının təmin edilməsini nəzərdə tutur. Bu, vergiyə cəlb edilən dövriyyənin vergi hesabatlarında dəqiq əks etdirilməsi, vergidən yayınma hallarının qarşısının alınması istiqamətində atılmış çox mühüm addımdır və sahibkarlıq subyektlərində şəffaflığın təmin olunmasını şərtləndirən əsas amillərdən biridir.

Azərbaycanda liberal iqtisadiyyatın qurulması istiqamətində fundamental addımlar atılmışdır. Beynəlxalq uçot sisteminin tətbiqi ilə bağlı tələblər də maliyyə şəffaflığının yüksəlməsinə hədəflənib. Azərbaycan Prezidentinin imzaladığı müxtəlif fərman və sərəncamlarda, habelə son illərin çox mühüm dövlət sənədləri olan "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı"nın, "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" və onun icrası üzrə Fəaliyyət Planının, "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın qəbul olunmasında və onlarda aparılmış dəyişikliklərin əsas məqsədi sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın formalaşdırılması, nağdsız əməliyyatların həcminin və vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır.

Ölkəmizdə biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi üçün sistemli işlər görülür. Son illərdə iqtisadiyyatımızın artımında qeyri-neft sektorunun payının artması bu sektorun inkişafında aparıcı qüvvə olan sahibkarlığa geniş meydan verilib.

Artıq 14 ildir Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi inkişaf siyasətinin başlıca istiqamətlərindən biri özəl sektorun hərtərəfli dəstəklənməsi, onun genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir.

Son illərdə ölkəmizdə sahibkarlığın inkişafı və biznes mühitinin yaradılması sahəsində mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması, dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunması, ölkənin əmək bazarının mövcud potensialının təbliği istiqamətində mühüm uğurlar əldə edilib.

Məhz Azərbaycanda aparılan məqsədyönlü iqtisadi siyasət sayəsində ölkəmizdə 2017-ci ilin doqquz ayında 171 mini daimi olmaqla, 226 min yeni iş yeri açılmış, son 14 ildə isə bir milyon 900 min yeni iş yeri yaradılmışdır ki, onların bir milyon 500 mini daimi iş yeridir. Yeni yaradılmış iş yerlərinin əsas hissəsi, yəni, 65,1 faizi qeyri-dövlət sektorunun payına düşür.

Bu gün də sahibkarlığın inkişafı istiqamətində görülən işlər davam edir. Dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, sahibkarların maarifləndirilməsi və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində ardıcıl iş aparılır. Görülən məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatının 80 faizdən çoxu, məşğul əhalinin isə təqribən 70 faizi bu sektorda cəmləşmişdir.

Nazirlər Kabinetinin 2017-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin çıxışı dövlətin sahibkara, sahibkarlıq fəaliyyətinə olan dəstəyinin bariz nümunəsi idi: O, qeyd etdi ki, "...Bu gün Azərbaycanda yaratdığımız şərait nəticəsində yüzlərlə, minlərlə sahibkar öz fəaliyyətini genişləndirir. Bizim sahibkarlarımız böyük imkanlara malikdirlər. Sahibkarların sosial məsuliyyəti də yüksək səviyyədə olmalıdır. Bu şəraiti onlar üçün biz yaratmışıq. Çünki indi Azərbaycanda sabitlik, sürətli inkişaf olmasaydı, bizim sahibkarlar bu qədər inkişaf edə bilməzdilər. Eyni zamanda, dövlət onlara güzəştli şərtlərlə kreditlər verir, onların məsələləri həll olunur. Mən sahibkarlarla dəfələrlə görüşmüşəm. Hər il bir neçə dəfə görüşürəm və tam dəstək göstərilir. Onlar da öz növbəsində sosial məsuliyyəti dərk etməlidirlər. Ona görə Qaradağ rayonunda sahibkarlar tərəfindən öz vəsaitləri hesabına 1000 mənzillik şəhərciyin tikilməsi çox yaxşı təşəbbüsdür. Mən bunu bəyənirəm, alqışlayıram. Bu, bütün sahibkarlara nümunə olmalıdır. Mən bundan sonra sahibkarların fəaliyyətini, o cümlədən bu göstəriciyə görə də qiymətləndirəcəyəm".

Azərbaycan Prezidenti cənab İlham Əliyevin qeyri-neft sektoruna göstərdiyi yüksək diqqət nəticəsində bu gün iqtisadiyyatın prioritet istiqamətlərindən olan aqrar sahə yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi və regionların inkişafı istiqamətində mühüm uğurlar qazanılıb. Aqrar sahədə aparılan uğurlu islahatlar nəticəsində Azərbaycanda bir sıra strateji məhsullara tələbatın yerli istehsal hesabına tam ödənilməsinə, ölkənin ərzaq təhlükəsizliyində xarici bazardan asılılığın azalmasına, ixracyönümlü məhsulların istehsal həcmini artırmaqla regionların inkişafına nail olunub. Fermerlərin dövlət tərəfindən çoxşaxəli subsidiyalarla təmin edilməsi kənd təsərrüfatı ilə məşğul olanları daha fəal çalışmağa sövq etməklə yanaşı, onların rifah halının yüksəldilməsinə gətirib çıxarıb.

Həyata keçirilən islahatların nəticəsidir ki, artıq aqrar sektorda dayanıqlı inkişaf reallaşıb, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə müsbət nəticələr əldə edilib. 2016-cı ildə barama üzrə artım 300 dəfə, pambıq üzrə 2,5 dəfə, tütün məmulatları üzrə 45 faiz, çay yarpağı üzrə 63 faiz, şəkər çuğunduru üzrə 73 faiz, düyü üzrə 72 faiz, buğda üzrə 9,8 faiz, kartof üzrə 7,5 faiz olub. Bununla da kənd təsərrüfatı məhsullarının artım tempi ölkə əhalisinin artım tempini xeyli üstələyib. Belə əlverişli şərait, eyni zamanda, respublikada ayrı-ayrı məhsullar üzrə özünütəminetmə səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərib.

Bu gün qarşıda duran əsas vəzifələrdən biri kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxarılmasıdır. Bununla bağlı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ərzaq bolluğu yaratmaq, bu sahədə idxalı azaltmaq, ixrac məhsullarının sayını və həcmini artırmaq kimi qarşıya prioritet vəzifələr qoyulub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 176 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları aparmışlar. 107 ölkəyə məhsul ixrac olunmuş, 169 ölkədən mal idxal edilmişdir. Bu ilin 9 ayında ixracın artımı 20 faizdən, kənd təsərrüfatında isə 50 faizdən çox olmuşdur.

Sahibkarların istehsal etdikləri məhsulların satışının təşkil edilməsi məqsədilə ötən ilin noyabrından etibarən Export.az ixrac portalı istifadəyə verilib, şərab, nar, fındıq, meyvə-tərəvəz, tikinti materialları, arıçılıq məhsulları istehsalçıları və ixracatçıları assosiasiyaları yaradılıb, mənşə sertifikatının verilməsi sadələşdirilərək müddəti üç gündən bir günə endirilib.

Azərbaycan Prezidentinin ixracın təşviqi üzrə qəbul etdiyi qərarlara uyğun olaraq, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi məqsədilə ümumilikdə 79 şirkətin iştirakı ilə 5 ölkəyə ixrac missiyaları həyata keçirilib.

Bakı Ekspo Mərkəzində keçirilən XXIII Azərbaycan Beynəlxalq Qida Sənayesi "WorldFood Azerbaijan 2017" və XI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "CaspianAgro 2017" sərgilərində respublikamızı aqrar sahədə təmsil edən müəssisələrin fəaliyyəti də bir daha göstərir ki, dünya bazarlarında xam neftin qiymətinin kəskin ucuzlaşması ölkəmizin ixrac potensialına və valyuta daxilolmalarına təsir göstərsə də, kənd təsərrüfatının inkişafı bu azalmanı əhəmiyyətli dərəcədə kompensasiya etmək iqtidarındadır. Aqrar sektorda ənənəvi sahə olan pambıqçılıq, baramaçılıq, çayçılıq, tütünçülük, fındıqçılıq və digər valyuta gətirən, ixracyönümlü və sosialyönümlü sahələrin inkişafına diqqət artırılıb.

Sərgidə dünyanın 28 ölkəsini təmsil edən 331 şirkət iştirak etmişdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva pambıq istehsalı, onun tədarükü və emalı ilə məşğul olan "Azərpambıq" MMC, təbii ipəkdən müxtəlif məhsullar istehsal edən "Şəki-İpək İstehsalı" MMC, müxtəlif çeşiddə məhsullar buraxan "Sumqayıt Tekstil və Trikotaj Fabriki", Şəki, Zaqatala və Qaxda istehsal sahələri fəaliyyət göstərən, öz məhsullarını xarici ölkələrə ixrac edən "Azərtütün" MMC, qida sənayesi sektorunda işlədilən qlükoza, fruktoza, quru nişasta istehsal edən "Oğuz Qarğıdalı Emalı Məhsulları Kompleksi" və digər müəssisələrinin məhsulları ilə də tanış olublar.

Ölkə Prezidenti cənab İlham Əliyevin sahibkarlar ücün yaratdığı əlverişli mühitin üstünlüyü sahibkarların dövlət qeydiyyatının "bir pəncərə" prinsipi əsasında həyata keçirilməsidir. Hazırda say bölgüsü baxımından yerli investisiyalı müəssisələr üstünlük təşkil edir. Lakin son dövrlər xarici investisiyalı müəssisələrin qeydiyyatında da yüksək dinamika özünü göstərir. Hüquqi şəxslərin dövlət qeydiyyatının "bir pəncərə" prinsipi ilə qeydiyyata alınmasına başlanmasından ötən müddət ərzində dövlət qeydiyyatına alınmış 36254 hüquqi şəxsdən 5470-i xarici investisiyalı müəssisələrdir ki, bu da qeydiyyata alınan müəssisələrin 15 faizini təşkil edir. 2017-ci ildə 5000-ə yaxın hüquqi şəxs dövlət qeydiyyatına götürülüb. Onların 97 faizi məhdud məsuliyyətli cəmiyyət təşkilati hüquqi formasında yaradılıb.

Azərbaycanın dünya bazarına ixrac olunan məhsullarına böyük maraq heç kəsə sirr deyil. Ona görə də ölkədə istehsal edilən məhsulların rəqabət qabiliyyətinin artırılması və dünya miqyasında brendə çevrilməsi üçün iri investisiyaların ayrılmasına ciddi ehtiyac duyulur və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Həyata kecirilən iqtisadi islahatlar Azərbaycan Sahibkarlar Konfederasiyasının qarşısında da cox böyük vəzifələr qoyur. Azərbaycan hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklərin edilməsi və icrasının təmini, bir sıra əmək və sosial iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Eyni zamanda, əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiyaları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına respublikamızda, eləcə də ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda, habelə investisiya qoyulmasında kömək göstərir.

Azərbaycanın möhtəşəm uğurlarına sahibkarlar ordusu da özünəməxsus töhfələr verməyə çalışır və bu, dövlət başçısının iş adamlarına etimadının bir təcəssümü olaraq mühüm vəzifə kimi qəbul edilir.

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir. Bununla bağlı, ardıcıl tədbirlər həyata keçirilir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Yerli sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və İnvestisiya imkanlarının təşviqi, habelə yeni bazarlara çıxış məqsədilə İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı və Azərbaycan sahibkarlarının iştirakı ilə bir cox beynəlxalq və yerli sərgi, bisnes-forumlar, görüşlər təşkil edilmiş, tədbirlərdə sahibkarların iştirakı təmin edilmişdir.

Sahibkarlara biznes əlaqələrini genişləndirilməsi və digər məsələlərdə lazımi xidmətlər göstərilmiş, müxtəlif biznes-forum, təlim və beynəlxalq sərgilərdə onların iştirakları təmin olunmuşdur. Cari ildə konfederasiyanın xarici ölkələrdə nümayəndəliklərinin sayı artırılmışdır.

2016-cı ildə ASK daha 3 nüfuzlu təşkilatın - İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası, "Dünya kiçik və orta sahibkarlıq Forumu" "İpək yolu" beynəlxalq təşkilatlarına üzv olmuşdur.

Azərbaycan sahibkarlarının ölkə iqtisadiyyatının inkişafında rolu nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən, hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar günü" kimi təsis edilmişdir.

Azərbaycanın son illərdəki inkişaf dinamikasına nəzər saldıqda, belə qənaətə gəlmək olar ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, ölkəmizin siyasi, sosial-iqtisadi, mədəni və bütün başqa sahələrdə inkişafının təmin olunması, əhalinin rifah halının, bütün kateqoriyalardan olan insanların sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər hazırda yüksək templə davam edir. Keçən qısa dövr ərzində nəinki mərkəzi şəhərlərdə, eləcə də regionlarda sosial-iqtisadi inkişaf sürətləndirilmiş, abadlıq-quruculuq işləri geniş vüsət almışdır.

Biz isə Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji vəzifələrin uğurla və vaxtında həyata kecirilməsi ücün əzmkarlıqla calışaraq qeyri-neft sektoru məhsullarının istehsalının artırılmasına, regionlarda rentabelli müəssisələrin yaradılmasına və inkişaf etdirilməsinə kömək göstərməklə bundan sonra da regionların sosial-iqtisadi inkişafına və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına nail olmasına öz töhfəmizi verəcəyik.

Ölkə Prezidentinə sadiqlik nümayiş etdirən sahibkarlarımız inanırlar ki, Prezident İlham Əliyevin rəhbərliyi altında inkişafın Azərbaycan modeli keyfiyyətcə yeni mərhələdə də öz nailiyyətləri ilə əlamətdar olaraq ölkəmizin qlobal böhrandan qorunmasını təmin edəcək və davamlı inkişafın istinadına cevriləcəkdir.

Məmməd MUSAYEV,
Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti